# Çuval

**Cəlil Məmmədquluzadə**

© Cəlil Məmmədquluzadə "Əsərləri".
Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı —1967.
Üç clddə. İkinci cild.
"Molla Nəsrəddin" jurnalından. 26 may 1908-ci il. No 21

Bir çuval ki, köhnəldi — o tərəfdən, bu tərəfdən hey başlayacaq yırtılmağa və dəlinməyə.

—Ədə, çuval dəlinib, çuvalduzu ver mənə, deşiyi tikim.
—Elə ki, bir tərəfdən yamayırsan, görüsən o biri tərəfdən yenə çuvalın içindən darı başlayıb tökülməyə.
—Ədə, çuvalduzu ver mənə.

Bu dəliyi  də tikirsən. Elə ki, çuvalı qaldırıb yükləyirsən eşşəyin üstünə, yenə darı başlayır su kimi axır yerə tökülməyə.

—Ədə, yavaş sür! Yavaş sür! Bu zəhrimar çuval yenə dəlinib.
—Hoqquş, hoqquş… Qoyma, qoyma! Darı tökülü.

Osmanlı hökumətinin darı çuvalı o qədər çürüyüb ki, hər gün çuvalın bir yeri dəlinir. İndi təzə deşikdən Samos cəzirəsi instəyir tökülsün yerə.

—Ədə, o çuvalduzu ver, bu deşiyi tikim.

Və lakin bu zəhmətlərin hamısı nəticəsiz görsənir; ondan ötrü ki, çuval çox köhnəlib; göhnə çuvalda darını saxlamaq çətindir. Samos cəzirəsinin əhalisi yunan tayfasındandır ki, rusca bunlara "qrek" deyirlər. Hərçənd bu millət "pak millətlərdən" deyil; amma bunlar qeyrətili və ziyalı bir tayfadır. Bunlar elə bir tayfadır ki, əgər bunları təzə və möhkəm çuvalın içinə doldursan, bəlkə orada qala bilər. Amma Türkiyənin indiki çuvalında bunlar qala bilməzlər; ondan ötru ki, çuval çürükdür.

Osmanlıda tək bircə türk tayfası dinməz-söyləməz qala bilər. Bunun səbəbi budur ki, cırıq torbaya nə qədər ot və qanqalaq bassan tökülməz. Amma darı və buğda tökülər.

Xülaseyi-kəlam, dünyada hər bir millət ki, sultan Əbdülhəmidin təhti-təbəiyyətində yaşamağı özünə rəva görür, — bu millət qeyrətdən və insaniyyətdən bilmərrə gərək əl çəksin.

Osmanlı idarəsinə səbr edib, osmanlı torpağında tək bircə türklər və bunlar kimi müsəlmanlar qala bilərlər; ondan ötrü ki, cırıq və dəlik çuvala nə qədər yovşan və küləş bassan, tökülməz. Amma erməni, slavyan, yunan və bu qism millətlər özlərini yox etməyə razı olarlar ki, sultan Əbdülhəmid kimi padşaha tabe olmasınlar.

Bunun da hikməti buradadır ki, cırıq və yırtıq torbaya əgər darını və buğdanı doldursan, elə hey bir ucdan töküləcək. İstəsən də ki, dəliyi tikəsən, görəcəksən ki, bir özgə yerdən töküldü; çünki torba çürükdür.

—Ədə, çuvalduzu ver, bu dəliyi tikim!
Sonra baxıb görəcəksən ki, yenə bir ayrı yerdən tökülür; çünki çuval çürükdür.

Molla Nəsrəddin

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: sentyabr, 2003